**Dilbər HÜSEYNOVA**
**AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**dilber.rehimova@gmail.com**

# MUSİQİ İLƏ BAĞLI RƏVAYƏTLƏRDƏ FÖVQƏLTƏBİİ QÜVVƏLƏR

Ərəblərdə də, digər xalqlarda olduğu kimi, qədim zamanlardan fövqəltəbii qüvvələrə inam olsa da, İslam dininin zühuru ilə bu təsəvvür daha da təkmilləşdi və beləliklə, Adəm peyğəmbərə baş əyməyən İblis – ondan törəyən oddan yaranmış divlər, Süleyman peyğəmbərə xidmət edən cin, başqa ifritlər anlayışı meydana çıxdı. Qurani-Kərimdən başqa qədim əfsanə və nağıllarda da İblis haqqında müxtəlif məlumatlar mövcuddur və deməliyik ki, lənətlənmiş olmasına baxmayaraq, İblis həm də mahir musiqi və ifa bilicisi kimi təqdim olunur. R.Erliksin "Иблис музыкант" ("Musiqiçi iblis") məqaləsində "الفليلة و ليلة" ("Min bir gecə nağılları")na istinad olunaraq quş və ya qanadlı at cildinə girmiş cinlərdən danışılır. Burada onların insanlarla olan münasibətindən, onlara gözəl musiqi ifa etməyi öyrətməklərindən söhbət açılır. Belə ki, Raşidin cariyəsi olan Töhfət əl-Qulub otağında tək halda ud çalarkən qarşısında çox gözəl görkəmli, onun musiqisinin sədaları altında rəqs edən şeyx görür. Mahnı bitdikdən sonra şeyx qıza yaxınlaşır və onu tanıyıb-tanımadığını soruşur. Cariyə isə Allaha and içərək tanımadığını, amma onun dəqiq cinlərdən biri olduğunu deyir. Tanış olmayan qonaq belə deyir: "Sən haqlısan, mən İblis dəstəsinin şeyxiyəm". Cin qızdan bütün İblis dəstəsinin adından onunla gəlməsini və udda ifa etməsini xahiş edir. Töhfət onunla razılaşdıqdan sonra şeyx onu qanadlı at cildində bahalı sarayları və gözəl bağçaları olan cinlər diyarına gətirir. İki gün ərzində cariyə udda çalır və onlar da rəqs edirlər. Bu müddətdən sonra

həmin cin İshaq əl-Mausiliyə musiqi öyrətdiyini deyir və cariyəyə də yeni musiqi fəndləri öyrədir. Yalnız bunları öyrəndikdən sonra cariyə əvvəlki ifasının başdan-başa səhv olduğunu anlayır. “الفليلة و ليلة” (“Min bir gecə nağılları”)nın digər bir hekayəsində yenə gözəl geyimdə bir şeyxin İshaq əl-Mausili həyat yoldaşı ilə otağında oturarkən peyda olduğundan danışılır. Cin udu alaraq çalmağa başlayır. Bu ifa haqqında İshaq əl-Mausili deyir ki, o elə ifa edirdi, sanki fəsahətlə ərəb dilində danışırdı. Allaha and olsun ki, onun ifasının gözəlliyindən elə bil evin divarları, qapıları, pəncərələri və digər bütün əşyalar ona cavab verir və onunla birlikdə ifa edirdilər.

Məruzədə cinlərin bu dərəcədə musiqi ilə bağlılığı və mahir ifaçılıq qabiliyyəti məhz miflərlə əlaqələndirilir. Burada günəş tanrılarından olan Ruhun göy gurultusuna bənzər səsi, cinlərin göy gurultusuna oxşar gülüşündən bəhs edilir. Həmin səslərin nəticə olaraq musiqiyə çevrilməsi qeyd olunur, buna dəlil olaraq bir çox müxtəlif xalqlara məxsus əfsanələr nümunə kimi göstərilir.

Ərəb ədəbiyyatının nümunəsi olan “الفليلة و ليلة” (“Min bir gecə nağılları”)nın adını çəkdiyimiz məqamda, düşünürük ki, fars ədəbiyyatına aid olan və həm də musiqi haqqında maraqlı məlumat verən “Tutinamə” əsərinə də diqqət etməyimiz yerinə düşərdi. Burada əsərin “Musiqi elminin mənşəyi, musiqi alətləri, onların ixtira edilməsi və hazırlanması haqqında hekayət” hissəsində belə danışılır: *Xocastə deyir: “Ey cəmiyyətin imanı və ey təbiətin sultanı! Alimlərin dediyinə görə, iki şey eşqi həyəcana gətirir: biri şərab, biri isə mahnı. Dünən mahnıdan o qədər danışdın ki, mən şərab dadmamış tamam sərxoş və mahnı eşitməmiş büsbütün bihuş oldum”.*

Düşünürük ki, burada şərabla mahnının adının birgə çəkilməsi heç də əbəs deyildir. İlk baxışda hər ikisinin haram sayılması ilə əlaqədar birgə qeyd olunduğu düşünülsə də, rəvayətin davamında belə deyilir: “Xocastə Tutiyə sual edir ki,

məgər tuti və şakərdən başqa bir quş danışa bilirmi və haqqın dalınca başqa heyvan da gəzir? Tuti deyir: "Quranda yazılıb: "Məgər biz sizi əyləncə üçün yaratmışıq? Siz elə bilirsiniz ki, bizə qayıtmayacaqsınız? Ey Xocastə, əgər sən qarışqaların və cücülərin zümzümələrini eşitsəydin, görərdin ki, onlar Allaha necə sitayiş edirlər".

Bu əsərdə musiqinin təməlini hind məmləkətində olan kəknus quşu və ya hind alimləri ilə əlaqələndirsələr də, şeytanın rolunu da qeyd etmək unudulmamışdır. Bununla bağlı belə deyilir: "Deyilənlərə görə, musiqi alətlərinin əksəriyyəti şeytanın əli ilə yaradılıb. Şeytan taxta nağara düzəltdikdən sonra öz-özünə gülür. Ondan nə üçün güldüyünü soruşduqda belə cavab verir: "O adamlara gülürəm ki, bu alətin avazından həzz alıb şadlanacaqlar". Qitə:

Nəxşəbi, şeytanda hiylə çox olur,
Şahlar da inanar onun sözünə.
Gör nə əməllərin sahibidir ki,
Hətta özü belə gülür özünə.

Bütün bu deyilənlər musiqi ilə bağlı maraqlı məlumatlar versə də, heç bir etibarlı mənbəyə əsaslanmayan sadəcə əfsanə və fərziyyələrdən ibarətdir. Buna baxmayaraq, düşünürük ki, musiqinin qüvvəsini təsvir etmək üçün bu cür biliklər oxucuda maraq doğurur və ciddi elmi tədqiqata rəngarənglik verir.

**Dilbar Huseynova**

## EXTRAORDINARY FORCESIN THELEGENDS RELATED WITH MUSIC

*Summary*

The thesis gives examples on music from different parts of the works belong to Arabic literature “The Thousand and One Nights" and an example of Persian literature "Tutinameh". Both of these narrations are related to supernatural forces such as demons and devils. The similarity and emotional harmony in the examples make the stories even more convincing that naturally arouses human interest.